

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 166 (23.578)

1 oktyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edərək yaralılara Allahdan şəfa diləyərək qeyd edib ki, onlar Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər alıb, yaralanıblar. Ölkə başçısı əminliyini bildirib ki, həkimlər əllərindən gələni edəcəklər ki, yaralılarımız tezliklə sağalıb normal həyata qayıtsınlar.

Prezident İlham Əliyev Azərbaycanda şəhid ailələrinə, Qarabağ qazilərinə göstərilən xüsusi diqqətdən bəhs edərək bir daha vurğulayıb ki, Azərbaycan öz doğma torpağında vuruşur, bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Dövlətimizin başçısı qardaş Türkiyəyə, onun Prezidentinə qətiyyətli, qardaşlıq mövqeyinə görə, eləcə də bu günlərdə bizə dəstək olan ölkələrə, təşkilatlara minnətdarlığını çatdırıb. Prezident İlham Əliyev bütün yaralı hərbçilərimizə, eyni zamanda şəhid olmuş hərbçilərimizin valideynlərinə öz adından, Azərbaycan xalqı adından təşəkkürünü bildirib.

Mayor Etibar Camalov Ali Baş Komandana, Prezidentə minnətdarlıq edib. Sonda xatirə şəkli çəkdirilib.

## Nazirlər Kabinetində müəyyən qərarlar qəbul edilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində sentyabr ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edilib. 16 sentyabr tarixli Qərara əsasən 2007-ci il 21 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası ərazisindəki daşınmaz tarix və mədəniyyət abidələrinin dünya, ölkə və yerli əhəmiyyət dərəcələrinə görə bölgüsü”ndə dəyişiklik edilərək “Babək rayonu” hissəsinin “Abidənin yerləşdiyi yer”, “Nehrəm kəndi” sözləri “Nehrəm qəsəbəsi”, “Babək qəsəbəsi” sözləri “Babək şəhəri”, “Cəhri kəndi” sözləri isə “Cəhri qəsəbəsi” sözləri ilə əvəz edilmişdir.

Bundan başqa, “Naxçıvan Muxtar Respublikasında xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi məqsədilə dövlət büdcəsindən maliyyələşdirilən, dövlət sifarişi ilə göstəriləcək baytarlıq xidmətlərinin Siyahısı” təsdiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 168 nömrəli Qərarına əsasən “Naxçıvan Muxtar Respublikasında fitosanitar tədbirlərinə və dövlət fitosanitar xidmətlərinə görə xidmət haqqının məbləğlərinin təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetində külək və günəş hibrid qida qurğusu qurulub

***Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində külək və günəş hibrid qida qurğusunun açılışı olub.***



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, universitetdə yeni korpuslar tikilir, yeni laboratoriya avadanlıqları alınır, tədris və təcrübi kabinələr qurulur. Külək və günəş hibrid qida qurğusunun muxtar respublikada ilk dəfə universitetdə qurulduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, yaradılan qurğu Naxçıvanda bu ixtisas üzrə peşəkar kadrların formalaşması üçün mühüm əhəmiyyətə malikdir. Diqqətə çatdırılıb ki, yeni qurğu dövlət dəstəyinin daha bir parlaq nümunəsidir. Rektor tələbələrin yaradılan şəraitdən səmərəli istifadə etmələrinin vacibliyini vurğulayıb.

Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov bu qurğunun burada qurulmasında məqsədin təkcə fakültələri elektrik enerjisi ilə təmin etmək deyil, eyni zamanda tədris laboratoriyası kimi yararlanmaq olduğunu bildirib, onun iş prinsipi haqqında məlumat verib. Vurğulanıb ki, külək turbini gövdəsinin hündürlüyü 12 metr, pərləri isə 4 metrdir, 10 kilovat enerjivermə qabiliyyətinə malikdir. 12 günəş paneli isə hər biri 280 volt olmaqla, 3,3 kilovat enerji vermək qabiliyyətinə malikdir. 20 batareyanın hər biri 200 amper, 240 voltdur. Diqqətə çatdırılıb ki, qurulan günəş batareyası korpusun isti su ilə təmin olunmasında xüsusi rol oynayacaq.

Naxçıvan Qaz-turbin Elektrik Stansiyasının direktoru Mürsəl Səfərov fakültə daxilində yerləşən enerji bloku haqqında tədbir iştirakçılarını məlumatlandırıb. Sonda Energetika ixtisası üzrə IV kurs tələbəsi Arif Qurbanov energetika sahəsində universitetdə yaradılan şəraitə görə tələbələr adından minnətdarlığını bildirib.

**Telli MUSTAFAYEVA**

## Ön xətdə yerləşən bölmələrdə uğurlu döyüş növbətçiliyi aparılır





Bu gün Azərbaycan Ordusu döyüş meydanında öz sözünü deyir, xalqımıza qələbə sevinci yaşadır. Ordumuz uğurlu əks-hücum əməliyyatını davam etdirərkən Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bölmələrində döyüş növbətçiliyi aparan hərbi qulluqçularımızın Vətən sevgisi, peşəkarlığı və ruh yüksəkliyi hər birimizi daha da qürurlandırır.

Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən bölmələrində əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq müdafiə mövqelərində nümunəvi xidmət aparırlar. Mürəkkəb dağlıq şəraitdə yerləşən bölmədə şəxsi heyət böyük ruh yüksəkliyinə və döyüş əzminə malikdir. Keçirilən məşğələlərdə ona təhkim edilmiş silahdan bacarıqla istifadə etməyi və düşmənin istənilən təxribatına layiqli cavab verməyi mənimsəyən hər bir əsgər peşəkar hərbçi kimi Vətənin müdafiəsində dayanır. Burada bir daha şahid olduq ki, ayıq-sayıq döyüş növbətçiliyi aparan igid əsgərlərimiz düşmənin istənilən təxribatının qarşısını almağa daim hazır və buna qadirdirlər.

Şəxsi heyətlə söhbət zamanı əsgər Kənan Məmmədov bildirdi: “Mən və əsgər yoldaşlarım keçirilən məşğələlərdə hərbi anda sadiq peşəkar bir əsgər kimi yetişmişik. Gələcək döyüşlərdə döyüş meydanından qaçacaq yeganə əsgər düşmən əsgəri olacaq”.

Zabit Xanbaba Qurbanlı isə dedi: “Mövqelərdə aparılan döyüş növbətçiliyi hər zaman ayıq-sayıq təşkil olunur. Şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Bu isə verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməyə imkan verir”.

Zabit Ceyhun Məmişov Azərbaycan Ordusunun son günlərdə həyata keçirdiyi əks-hücum əməliyyatının şəxsi heyəti daha da ruhlandırdığını və bu əks-hücum əməliyyatının böyük qələbə ilə nəticələnəcəyinə inandıqlarını dedi.

Göründüyü kimi, Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrində uğurlu döyüş növbətçiliyi aparılaraq Vətənimiz etibarlı müdafiə olunur. Təbii ki, bütün bunlara da böyük ruh yüksəkliyi və Vətən eşqi ilə aparılan məqsədyönlü tədbirlər nəticəsində nail olunub.

**Kənan CƏLİLOV**

## Hamiliyə verilmiş ixtisasların tələbələri ilə görüşlər keçirilib

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən hamiliyə götürülmüş “Naxçıvan” Universitetinin İqtisadiyyat fakültəsinin İqtisadiyyat ixtisasının tələbələri ilə görüş keçirilib.*



Görüşdə İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədov giriş sözü ilə çıxış edərək “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı keçirilən tədbirlərin və tələbələrlə təşkil olunan görüşlərin əhəmiyyətindən danışıb.

Sonra İqtisadiyyat Nazirliyinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Anar Cəfərov “Muxtar respublikada son illərdə iqtisadiyyat sahəsində görülmüş işlər və əldə olunmuş nəticələr” mövzusu üzrə slaydlar vasitəsilə çıxış edib. Çıxışda muxtar respublika iqtisadiyyatı üzrə investisiya qoyuluşları və infrastruktur layihələri haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdiri Elnur Mahmudov “Sənaye zonalarının yaradılmasının iqtisadi əhəmiyyəti və Şərur Sənaye Məhəlləsinin yaradılmasının özəl sektorun inkişafına təsiri” mövzusu ətrafında çıxış edərək muxtar respublikada özəl sektorun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafının təmin edilməsində, rayonlarda sənaye sahəsinin inkişafı və məşğulluğun təmin olunmasında Şərur Sənaye Məhəlləsinin əhəmiyyəti barədə geniş məlumat verilib.

Sonra mövzu ətrafında müzakirələr olub, tələbələri maraqlandıran suallar cavablandırılıb. Həmçinin fəal tələbələrə həvəsləndirici hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

* * *

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən hamiliyə götürülən Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün 2015-ci ildən başlayaraq bir sıra tədbirlər həyata keçirilib. Bu tədbirlərin davamı olaraq komissiya tərəfindən Naxçıvan Dövlət Universitetinin tələbələri üçün seminar təşkil edilib.

Tədbiri universitetin kafedra müdiri Flora Kərimova giriş sözü ilə açıb.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları Türkan Gülməmmədli, Zaman Bağırov Azərbaycan Respublikasının dövlət qulluğu modeli, Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu sahəsində islahatlardan danışıblar.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Ordum varsa, yurdum var

## Hərbi liseydə təhsil alan kursantlara da bu hiss aşılanır

*__“Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdəsi olsun”__, – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və böyük səyləri hesabına 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradıldı. Bununla bağlı ulu öndər deyirdi: __“Biz bu işə başlayanda o, bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi, Azərbaycanın gələcəyinə baxış idi, Azərbaycanda ilk milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaradacaq”.__*



Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil alması üçün əlverişli şərait yaratmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bazasında Naxçıvan filialının fəaliyyətə başlaması isə görkəmli dövlət xadiminin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin davamı idi.

Ulu öndərin milli ordu quruculuğu siyasətini bu gün uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev milli ordu quruculuğunu, gənc hərbçi kadrların yetişdirilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır. Ölkə başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və milli ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılması da bunun ifadəsidir.



Bu gün qürur hissi ilə demək olar ki, Heydər Əliyev adına Hərbi Lisey ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, vətənpərvər zabitlərlə təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Liseydə gözəl ənənələr yaradılıb və yaşadılır. Bu ənənələrdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər il liseyi bitirən məzunlarla görüşüdür. Cari il iyun ayının 17-də liseyin 20-ci buraxılışı münasibətilə keçirilən tədbir kursantlarda onlara, məzunların gələcək fəaliyyətinə böyük inam və etimadın ifadəsi olub. Tədbirdə Ali Məclisin Sədri deyib: ***“O ordu qüdrətlidir ki, onun sıralarında peşəkar və sağlam mənəviyyata malik olan vətənpərvər zabitlər xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, “Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir zabit vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”. Məzun olan hər bir kursant gələcək təhsil və xidmət dövründə ümummilli liderimizin tövsiyələrini əsas götürməli, Vətənimizə, dövlətimizə və xalqımıza sədaqətlə xidmət etməlidir. Qarşınızda bir əsas vəzifə durur: o da təhsil aldığınız liseyin adına layiq peşəkar hərbi qulluqçu kimi yetişməkdir. Liseyin məzunları bundan sonra da təhsili və nizam-intizamı ilə seçilməli, hərb sənətinə dərindən yiyələnməli, mütaliə etməli, yeni texnologiyaları, müasir silahları, hərbi texnikanı mükəmməl mənimsəməli, dünyagörüşlərini daim artırmalıdırlar. Zabit adını daşımaq böyük məsuliyyətdir. Peşə vərdişi, fiziki və nəzəri hazırlığı ilə bərabər, zabit həm də mənəvi keyfiyyətləri ilə seçilməlidir. Tariximizi, dəyərlərimizi və qəhrəmanlıq ənənələrimizi yaxşı öyrənməli, rəhbərlik etdiyi şəxsi heyətin əsasda mənəvi-psixoloji hazırlığına nail olmalıdır”.***

Bu gün liseydə kursantların hərbi biliklərə dərindən yiyələnmələri üçün yaradılan hər cür şərait də həmin vəzifələrin yerinə yetirilməsinə hesablanıb. Belə ki, liseyin tədris və yataqxana korpusları ən müasir avadanlıqlarla təchiz olunub. 750 yerlik yataqxana binasında müasir məişət şəraiti ilə yanaşı, kursantların asudə vaxtlarının səmərəli təşkili və istirahəti də təmin edilib, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılıb. Liseydə kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzində saxlanılır. Müasir avadanlıqlarla təchiz olunmuş 25 çarpayılıq tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilib.

Liseydə 26 sinif otağı, fənn kabinələri, kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter və 2 linqafon otağı vardır. Sinif otaqları müasir avadanlıqlarla təmin edilib, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilib. Hərbi liseydə elektron tədris sistemi vasitəsilə interaktiv dərslərin keçilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə zəngin elektron dərslik bazası yaradılıb, 11 sinif otağında elektron lövhə quraşdırılaraq distant təhsil sisteminə qoşulub.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən hərbi kabinə və atəş hazırlığı sinfi gələcəyin zabitlərində ilkin peşə vərdişlərinin formalaşmasına xidmət edir. Burada quraşdırılan “Gilavar” və “Scatt” tipli atış trenajorları vasitəsilə kursantların real şəraitə uyğun olaraq nişanalma bacarıqları inkişaf etdirilir, yoxlanılır və qiymətləndirilir.

Liseyin müəllim-zabit heyəti bütün bu imkanlardan səmərəli istifadə edir. Keçilən dərslərlə yanaşı, müxtəlif disput, olimpiada və yarışlar təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin uğurları ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır. Bu sırada ilk olaraq onu deyək ki, hərbi lisey təhsil sahəsindəki nailiyyətlərinə görə 2008-2009-cu tədris ilində ölkəmizdə keçirilən “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olub. Liseyin kursantları ötən dövr ərzində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarında 2 “Qızıl”, 1 “Gümüş”, 12 “Bürünc” nişana layiq görülüblər. Eyni zamanda gələcək zabitlər muxtar respublika üzrə keçirilən müxtəlif inşa yazı və şeir müsabiqələrində ön yerlərə sahib olublar.

Ötən tədris ilində liseydə 188 kursant təhsilini başa vurub. Onlardan biri “Gümüş”, biri “Qızıl” nişana layiq görülüb. Məzunlardan 28 nəfəri Türkiyənin, 9-u Rusiya Federasiyasının, 151-i ölkəmizin ali hərbi məktəblərinə qəbul olub. Cari tədris ilində liseydə 205 kursant təhsil alır. Ümumilikdə, 1998-2020-ci illər ərzində hərbi liseyə 4000-dən çox kursant qəbul olunub, 2001-2019-cu illər ərzində liseyi 3300-dən çox məzun bitirib. Liseyi bitirən məzunların 124-ü xarici ölkələrdə (Türkiyə, Rusiya, İtaliya) təhsil alıb, onlardan 95-i (Türkiyə, Rusiya, Cənubi Koreya) hazırda təhsillərini davam etdirir.

Bu liseyin 2000-ə yaxın məzunu zabit kimi Silahlı Qüvvələrimizdə xidmət edir. Onlardan 2 kapitan, 3 baş leytenant, 2 leytenantın ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalması burada hərbi-vətənpərvərlik tərbiyəsini yüksək səviyyədə formalaşdırılmasının ifadəsidir. Onların şərəfinə liseydə guşə düzəldilib. Elə bu guşənin qarşısında məktəbin bir neçə müəllimi və kursantı ilə həmsöhbət olduq.

Azərbaycan Respublikasının Əməkdar müəllimi, liseydə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edən Təyyibə Bağırova digər təhsil ocaqlarından fərqli olaraq onların üzərinə daha böyük məsuliyyət düşdüyünü dilə gətirdi:

– Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq məlum hadisələrin nəticələrini o günləri görməyənlər də yaşayırlar. Onlar bugünkü gənclikdir. Təbii ki, bu gün liseydə təhsil alanlar da həmin gənclər sırasındadırlar. Onlarda Vətənə sevgi və məhəbbət hissləri formalaşdırmaq, ərazi bütövlüyümüz, haqq işimiz uğrunda şəhidlik zirvəsinə ucalmış eloğullarımız haqqında ətraflı məlumat vermək liseyin pedaqoji kollektivinin qarşısında duran başlıca vəzifədir. Və bu vəzifənin yerinə yetirilməsi üçün kollektivimiz hərtərəfli şəraitlə təmin olunub.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, kursantlara fizika fənnini tədris edən Məryəm Vəlibəyova:

– Bir neçə gündür ki, ölkəmiz müharibəyə cəlb olunub. Biz başlamamışıq bu müharibəni. Biz torpaqlarımızın alınması, ərazi bütövlüyümüzün təmin olunması, işğalçı, azğın düşmənin yeni təxribatlarının qarşısını almaq üçün qələbə əzmi ilə vuruşmuşuq. Liseyin kursantlarına uzun illər davam edən ədalətsizliklər, müharibənin gedişi barədə ətraflı məlumatlar veririk. Onların vətənpərvərlik ruhunu bu günlərdə daha dərindən hiss edirəm. Görürəm ki, kursantlarımız bu gün cəbhə bölgəsində qəhrəmanlıqla döyüşən igidlərin yolunu tutmaq istəyirlər. Bu yol haqq yoludur.



Liseyin Tədris şöbəsi rəisinin müavini, mayor Hikmət Hacıyev:

– Ölkəmizdə müstəqilliyin ilk addımları məhz bu torpaqda – Naxçıvanda atılıb. Naxçıvanlılar Vətəni hər şeydən uca tutanlardır. Əmir Teymur kimi dünyanı fəth edən bir sərkərdə 14 il naxçıvanlıların əzmini qıra bilmədi. Bu gün bu qədim diyarda yaşayan gənclik onların övladlarıdır. Və bəziləri bizim liseydə təhsil alır. Onların yüksək mənəviyyatlı, milli dəyərlərə sadiq, fiziki cəhətdən sağlam hərbçi kimi formalaşması üçün əlimizdən gələni əsirgəmirik. Bunun ifadəsidir ki, kursantlar muxtar respublika və Əlahiddə Ümumqoşun Ordu üzrə təşkil olunan idman yarışlarında da fəal iştirak edirlər. Belə ki, liseyin idmançıları ötən ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələri arasında keçirilən yüngül atletika idman növü üzrə birincilikdə komanda hesabında I, oktyabr ayında cüdo birinciliyində komanda hesabında III, noyabr ayında ali və orta təhsil müəssisələri arasında TİR idman növü üzrə birincilikdə I, dekabr ayında kinqboks birinciliyində fərdi yarışda müxtəlif çəki dərəcələrində I, II və III, Əlahiddə Ümumqoşun Ordu üzrə keçirilən cüdo birinciliyində 73 kiloqram çəki dərəcəsində I yerlərə layiq görülüblər.

Ehtiyatda olan zabit Samir Məhərrəmov, valideyn:

– Oğlum Tahir bu liseydə təhsil alır. Özüm də hərbçi olmuşam. Övladımın evdə lisey haqqında etdiyi söhbətlər, özümün də burada gördüklərim belə deməyə tam əsas verir ki, liseydə Azərbaycan Ordusu üçün gələcəyin sağlam, vətənpərvər zabitləri yetişdirilir. Bu isə Azərbaycan Ordusuna töhfə, ölkəmizin hərbi qüdrətinin gücləndirilməsində hərtərəfli zəmindir.

Kursant Hümbət Şəfiyev:

– Hərbçi olmağı, ordu sıralarında zabit kimi qulluq etməyi hələ orta məktəbdə oxuyarkən arzulayırdım. Ordumuz, igid hərbçilərimiz, şəhidlərimiz haqqında yazılanları tapıb oxuyurdum. Hərbi dərslərə xüsusi maraq göstərirdim. Sevinirəm ki, hərbçi olmaq arzusuna çatmaq üçün artıq ilk addımımı atmışam. Hazırda ikinci kursda oxuyuram. Bu iki il ərzində bizə böyük qayğı və tələbkarlıqla yanaşan zabit və müəllim heyəti hərbi peşənin sirlərini dərindən öyrətməyə səy göstərir. Məşğələlərimizin böyük əksəriyyəti təcrübi şəkildə keçirilir. Keçilən dərslərdə, təcrübi məşğələlərdə ordumuzla bağlı maraqlı söhbətlər aparan müəllimlərimiz bu gün Silahlı Qüvvələrimizin cəbhə bölgəsində göstərdiyi şücaətlərdən danışaraq gələcəkdə bizim də torpaqlarımızın keşiyində mətanətlə dayanmağımızın şərəf işi olduğunu diqqətimizə çatdırırlar. Biz də çalışacağıq ki, göstərilən etimadı doğruldaq.

Vüqar Əhmədov, Tahir Məhərrəmov, Turan Rüstəmli, Telman Məmmədov da kursant yoldaşlarının dediklərinə şərik çıxırlar...

Onların söhbətləri qəlbimizdə qürur hissləri oyadır. Sevinirik ki, burada Azərbaycan Ordusuna layiq kadrlar yetişdirilir.

*__Son olaraq.__ İnanırıq ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olarkən kursantlar qarşısındakı çıxışında dediyi: __“Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar”__, – sözlər reallıq olacaq.*

**Muxtar MƏMMƏDOV**

*1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günüdür*

## Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir



*Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə oktyabr ayının 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.*

Ölkəmizdə milli prokurorluq orqanlarının formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra milli prokurorluq orqanları ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının müdafiəsində çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təşkilat kimi formalaşmışdır. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

***“Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir”***, – deyən ulu öndər hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması üçün hüquqi zəmin formalaşdırmış, prokurorluğun fəaliyyət istiqamətlərini müəyyən etmişdir.

Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş “Azərbaycan Respublikasının Kontitusiyasına dəyişikliklər edilməsi haqqında” Referendum Aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Demokratik-hüquqi dövlət quruculuğu konkret zamanla məhdudlaşmayan, strateji əhəmiyyət daşıyan, daimi fəallıq və zəhmət tələb edən davamlı prosesdir. İctimai həyatın müxtəlif sahələrini tənzimləyən qanunların cəmiyyətin inkişaf ahənginə uyğun təkmilləşdirilməsi, habelə insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi baxımından prokurorluq orqanlarının fəaliyyətində çevik həll prosedurunun tətbiqi vətəndaş cəmiyyətinin yetkinliyinin mühüm şərtlərindən sayılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar”.*** Ölkə başçısının prokurorluq orqanları qarşısında müəyyən etdiyi, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi uğurla həyata keçirilir. Prokurorluğun ölkənin hüquq sistemində rolunun artırılması, dövlətimizin daha yüksək inkişaf mərhələsində prokurorluq orqanlarına daha böyük inam və etimad göstərilməsinin nəticəsi olaraq bu dövlət təsisatı qarşısında yeni vəzifələrin müəyyən olunması prosesi həyata keçirilir.

Ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət proqramının ötən illərdə həyata keçirilməsi nəticəsində prokurorluq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək muxtar respublika prokurorluq orqanlarında kadrlara aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda struktur islahatlarının həyata keçirildiyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturu Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Ali Məclisin Sədri demişdir: ***“Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosial-iqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir”.***

*Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları bundan sonra da ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mətbuat xidməti***

## Biz zəfər çalacağıq!

### *Qələbə bizimlədir!*



*Hər bir insan dünyaya göz açdıqda ilk olaraq anasını gördüyü kimi, ilk qədəmlərini də Vətən torpağında atır. Elə Vətən sevgisinin hərarətini də o zaman duyur. Vətən sevgisi insanın qəlbinə hakim kəsilən, ana qədər müqəddəs bir hissdir. Tarixən Vətənimizin ərazisi dəfələrlə qəsbkarların hücumlarına məruz qalmışdır. Bunun nəticəsidir ki, torpaqlarımızın bir hissəsi, Dağlıq Qarabağ kimi dilbər guşəmiz ermənilərin əlinə keçmişdir. Bütün bunlar o zamankı rəhbərlərin yarıtmaz siyasəti nəticəsində baş vermişdir. Qürur hissi ilə deyə bilərik ki, bu gün artıq güclü dövlətimiz və sərhədlərimizi qoruyan güclü ordumuz var. Deməli, dövlətimiz çox şeyə qadirdir.*

Məlum olduğu kimi, sentyabrın 27-də saat $6^{00}$ radələrindən başlayaraq Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən isə düşmənə layiqli cavab verilir. Belə ki, Füzuli rayonunun Qaraxanbəyli, Qarvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı və Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar və Murovdağ zirvəsi düşməndən azad edilib. Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib, düşmən xeyli itki verib. Ermənistan silahlı qüvvələrindən azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən Azərbaycan Ordusunun bölmələri əldə olunmuş müvəffəqiyyəti artırmaq məqsədilə əks-hücum əməliyyatlarını davam etdirməkdədir. Ermənistanın hərbi təxribatlarına layiqli cavab verilir, sarsıdıcı zərbələr vurulur.

Ordumuzun gücü-qüdrəti, yenilməzliyi düşmənə bir daha nümayiş etdirildi. Silahlı Qüvvələrimizin xalqımızın nicat yerinə, qürur mənbəyinə çevrildiyi bir daha təsdiqləndi. Sevincimizi, qələbəmizi, bu yüksəlişimizi içimizə sığdıra bilmirik… Azərbaycan Ordusuna da elə bu cür QƏLƏBƏ yaraşır. Əldə etdiyimiz uğurlar xalqımızın zəfəridir. Cənab Prezidentimiz, Ali Baş Komandanın verdiyi əmr və tapşırıqlarla Qələbəyə gəlib çatacağımıza, 30 illik həsrətimizə son qoyulacağına inanırıq. Bunun üçün aylar-illər deyil artıq günlər kifayət edəcək. Doğrudan da, işğal olunmuş torpaqları azad etmək üçün Azərbaycan Ordusuna bir neçə gün kifayət edərmiş. Çünki bu günlər ərzində neçə ərazimiz düşməndən azad edildi. Üçrəngli bayrağımızın həmin torpaqlarda dalğalanacağı günü gözləyirik.

Bu zəfər, bu qələbə yurddaşlarımızın sabaha olan inamını, ümidini daha da yüksəltdi. Azərbaycan Ordusu qələbə əzmindədir. QƏLƏBƏ Azərbaycanındır! QƏLƏBƏ bizimdir! Çünki haqq bizimlədir! Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində də dediyi kimi: ***“Bu işğala son qoyulmalıdır və qoyulacaq. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır”.***

Bəli, bu torpaqlar bizim xalqa məxsusdur. Biz kiminsə torpağını ələ keçirmirik, doğma torpaqlarımızı məkrli düşməndən azad edirik. Bu torpaqlarda zəfər çalacağımız gün qarşıdadır. Ölkə başçısı cənab İlham Əliyevin müdrik siyasəti, rəşadətli ordumuzun qüdrəti, xalqımızın əzmi və Azərbaycana dəstək olan dost ölkələrin birliyi sayəsində, inanırıq ki, şəhid qanı ilə suvarılmış müqəddəs torpaqlarımız tez bir zamanda düşmən əsarətindən azad olunacaq və şanlı bayrağımız Qarabağda dalğalanacaq. Biz əminik ki, vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında bütün silahlara sarılmış düşmən tab gətirə bilməz. Tanrım ordumuzu qorusun. Dualarımız sizinlədir Azərbaycan əsgəri!!!

**Nuray ƏSGƏROVA**

## Elmi konfrans keçirilib



“Naxçıvan” Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə “XX əsr Naxçıvan ədəbi mühitində dil məsələləri” mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, Naxçıvan ədəbi mühiti Azərbaycan ədəbiyyatının xüsusi tərkib hissəsidir. Bu ədəbi mühit qədim dövrlərdən orta əsrlərə, yeni dövrdən müasir günümüzə qədər həmişə Azərbaycan ədəbiyyatına parlaq ədəbi simalar, qiymətli əsərlər bəxş etmişdir. XX əsr Naxçıvan ədəbi mühiti də Azərbaycan və dünya ədəbiyyatına onlarca görkəmli şair və yazıçı bəxş etmişdir.

Daha sonra Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimləri – professor Sədaqət Həsənovanın “Qafar Qərib yaradıcılığının dil, üslub xüsusiyyətləri”, dosent Qənirə Əsgərovanın “Naxçıvan onomastikasında Firudin Rzayevin rolu” və Xuraman Hacızadənin “Fonetika və fonologiya problemlərinin həllində naxçıvanlı dilçi alimlərin rolu” mövzusunda çıxışları dinlənilib.

**Seyfur HACIMURADOV**

# Qocalıq da bir sərvətdir



*İnsanlar həyatlarının digər dövrünə nisbətən tənhalığı ahıl yaşda daha çox hiss edirlər. Ahıl insanlarsız isə həyatı təsəvvür etmək mümkün deyil. Onlar həyatı mənalandıran, ona rəng qatan, örnək verən, nümunə olan insanlardır. Ahıl insan hər bir ailənin möhkəmliyi, mənası deməkdir, cəmiyyət üçün də əvəzolunmazdır. Yaşlıların bilik və bacarıqlarından, həyat təcrübəsindən bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq baxımından çox zəruridir. Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. Yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir.*

Tarixboyu xalqımız ahıllara və yaşlı insanlara hər zaman dərin ehtiramla yanaşıb, onlar daim qayğı və nəvazişlə əhatə olunublar. Belə qədim ənənələrin zamanın sınağından çıxaraq bizim dövrümüzədək gəlib çatması və bu gün də həmin dəyərlərin yüksək səviyyədə yaşadılması sevindirici haldır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman



böyük həssaslıqla yanaşmış, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu gün də ölkəmizdə ahıl insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub və bu qayğı ildən-ilə artır. Ahıl vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Onlara müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-məişət şəraitlərinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Pensiya və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması ahıllara göstərilən davamlı dövlət qayğısının ifadəsidir.

Muxtar respublikamızda da sosial-iqtisadi inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına, yaşayış səviyyəsinin yüksəlməsinə hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” onların sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamlılığını təmin edib.

Muxtar respublikada 1941-1945-ci illər müharibəsi veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Müharibə iştirakçıları minik avtomobilləri ilə təmin edilir, onların yubileyləri qeyd olunur, sosial müdafiələrinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Tənha ahıllara göstərilən dövlət qayğısının daha bir nümunəsi Şahbuz şəhərində yerləşən Ahıllar Evidir. Onlara göstərilən qayğının şahidi olmaq, yaradılan şəraiti görmək üçün adıçəkilən ünvana üz tuturuq. Öyrənirik ki, 3 mərtəbədən ibarət olan binada sakinlər üçün görüş, istirahət, idman, əmək terapiyası, həkim otaqları, kitabxana fəaliyyət göstərir. Təkcə 1000-ə yaxın audiomaterial olan kitabxananın fondunda Ahıllar Evinin başqa millətdən olan sakini Violetta Nikolayevnanın xahişi nəzərə alınaraq fransız, rus, ingilis və türk ədəbiyyatından da nümunələr toplanılıb.

Sakinlərin istirahət otağı ilə tanışlıq zamanı burada şahmat oynayan Məhərrəm və Mustafa baba ilə həmsöhbət oluruq. 88 yaşlı Məhərrəm baba bildirir ki, ömrünün 60 ilini müəllimlik peşəsinə həsr edib.

O deyir ki, artıq 18 ildir, Ahıllar Evinin sakiniyəm. Burada sakinlərin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilir, müalicələrinə köməklik göstərilir, əlamətdar günlərdə görüşlər təşkil olunur, sovqatlar təqdim edilir. Bizim sağlamlığımızın qorunmasına, tibbi reabilitasiyamıza xüsusi önəm verilir. Belə ki, protez-ortopedik və müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmağımız üçün səyyar xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir. Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər də təşkil olunur. Bütün bunlardan əlavə bizi muxtar respublikanın gəzməli-görməli yerlərinə gəzintiyə də aparırlar.

Ahıllar Evinin 90 yaşlı sakini Zeynəb nənə ilə də görüşürük. O da burada yaradılan şəraitdən ağızdolusu danışır. Müsahibim deyir ki, burada işləyənlərin hər biri onlarla öz valideynləri kimi davranır, qayğılarına qalırlar. Hətta bu yaxınlarda Ahıllar Evinin rəhbərliyi tərəfindən Zeynəb nənənin 90 illik yubileyi təşkil olunub və sakinlər arasında qeyd edilib. Həmçinin hər həftəsonu onlara həyətyanı sahədə yerləşən istirahət guşəsində samovar çayı ilə çay süfrəsi təşkil olunur.

Zeynəb nənə və digər sakinlərlə sağollaşmaq vaxtıdır artıq. Lakin diqqətimizi çəkən başqa bir məqam burada yaşayan hər bir sakinin çöhrəsində gördüyümüz ifadədədir. Anasından ayrılan körpələrə bənzəyirlər, sanki



onlar. Bizi öpüb bağırlarına basan yaşlı nənələr, babalar öz nəvələri kimi əzizləyir, şirin sözlər deyirlər. Görünür, dövlət qayğısı sayəsində heç bir maddi-mənəvi tələbata ehtiyacı olmayan insanların qəlblərini yalnız övlad həsrəti sızladır. Uca Allah müqəddəs “Qurani-Kərim”də belə buyurmuşdur: “Bilin ki, sizin mal və övladlarınız sınaqdırlar (vasitələrdir) və yanında böyük hökmdarlıq olan Allahdır”.

*Çənə əl üstündə, əl çomaq üstə*
*Qocalar əyləşir tin başlarında*
*Sinə bayatılı, könül şikəstə,*
*Ömür varaqlanır yaddaşlarında.*

Bu günümüzdə də, dünənimizdə də hər bir azərbaycanlı ailəsi üçün ata-anaya, yaşlı nəslə məhəbbət, hörmət, valideynlərə diqqət və qayğı əsas amil olub. Amma, təəssüf ki, bəzən bunun əksi də olur. Bəzən valideynlər övlad qayğısından kənar qalaraq belə ünvanların sakinlərinə çevrilirlər. Böyüyüb boya-başa çatdırdığı övladından soyuq münasibət görmək, yeməyib yedirdiyi, geyinməyib geydirdiyi, hər əzabına qatlaşdığı övladından laqeydlik görməyin necə bir əzab olduğunu övladından bu münasibəti görənlər bilər. Bu mənada, yaxşı ki onların ümid yeri olan ünvanlar var. Və dövlətimiz hər bir yaşlı, ahıl sakinə belə ünvanlarda böyük qayğı göstərir. Bu insanların yeganə ehtiyacı övlad sevgisinədir. Harada yaşamasından asılı olmayaraq, tənha, kimsəsiz ömür sürən bu ahıllara məhz bu yaşında diqqət, qayğı göstərilməsi vacibdir.

✍ **Telli MƏMMƏDOVA**

*Oxunması zəruri olan kitablar*

# Həyat yaşamaq uğrunda mübarizəsi ilə gözəldir



Şimali Amerika sahillərində qızıl axtarışına çıxan iki yolçu. Mübarizələrlə dolu həyat hekayəsi. Bu mübarizənin yox etdiyi insanlıq, dostluq, mərhəmət hissləri. Bütün bunlara baxmayaraq, həyatı ilə savaşa çıxan mübariz bir qəhrəman. Bu savaşda qarşıya çıxan məhrumiyyətlərə sinə gərən, aclıq və vəhşi heyvanlarla mübarizə aparan, həyat eşqi sönməyən, taleyinə qarşı gələn ümidli insan. Bu hekayə həyat sevgisi olan, hər hansı çətinlik qarşısında belə, inamını, şücaətini qoruyan ümidli insanların hekayəsi, ömrünün son anına qədər həyatla rəqabət etməyi sevən cəsarətli, güclü, əzmkar bir insanın həyat təcrübəsi nəticəsində ortaya çıxan fantastik kəşfdir.

Bərk yorulmuş və taqətdən düşmüş, uzun müddət çətinliklərlə üzləşib, hər cür məhrumiyyətlərə məruz qalmış, qızıl axtarışında olan, çay ilə çatmaq istədikləri sahilə tərəf irəliləyən iki yolçu. Çayın ortasında qalan, bədbəxtliyə düçar olmuş dostunun ümidsiz yalvarış səslərinə cavab verməyən, sahilə çıxmağa can atan və yoluna davam edən Bill. Və bundan sonra başlanan amansız həyat mübarizəsi. “Dost”unun onu yarı yolda qoyub getməsinə baxmayaraq, hələ də Billin onu atmayacağına, “kiçik dəyənəklər ölkəsi”ndə onu gözləyəcəyinə və birlikdə Böyük Ayı gölünə çatacaqlarına inamını itirməyən qərib yolçu. O bu cür düşünməyə məcbur idi. Əks halda, mübarizəni davam etdirməyin heç bir mənası qalmazdı və o zaman yeganə çarə əl-ayağını uzadıb ölmək olardı… Qəhrəman yolda dostu Billin izlərinə rast gəlir. Billdən yalnız ağ-çəhrayı rəngdə sümüklər qalmışdı. Lakin onu atmasına baxmayaraq, o, Billin qızılını götürmür. Hətta görəsən, Bil onun yerində olsaydı, bu cür edərdimi? – deyə də düşündü və sürünərək irəliləməyə davam edir…

Bu hekayədə həm də əsl dost kimdir, onu düzgün seçmək, tanımaq olarmı? – sualına cavab axtarılır. Məncə, dostluq, yoldaşlıq çox dərin anlayışdır. Yoldaşınla sona qədər getmək, onu tək qoymamaq, bəzən onu mənfilərilə də sevmək, müdafiə etmək bir dostun insanlıq borcudur. “Həyat eşqi”nin Billi, bəlkə də, yoldaşını tək qoyub getməsəydi, özü də sonda canavarlara yem olmayacaq, həyat ümidli qəhrəmanımıza növbəti dərsini verməyəcəkdi…

“Həyat olan yerdə, ümid də olmalıdır!” – bu hekayənin cəlbediciliyinin sirri onun yaratdığı emosional təsirdədir, bunun arxasında müəllifin bacarığı, görkəmli Amerika yazıçısı Cek Londonun üstün ədəbi istedadı dayanır. Baş qəhrəmanın yaşadığı aclıq hissi tamaşaçıların şüuruna işləyir. Qəhrəmanın əzabının beynimizdə əksini tapan vizual görüntüləri ona olan mərhəmət hissimizi artırır. O, açıq səma altında yatır, amma narahat, acdır. Tez-tez boş ərazidə canavarların səsini eşidir. Üç canavar onun keçdiyi yoldan keçir, qorxunc Ayı ilə qarşılaşır. O bu vaxt aclıqdan sönən həyatını son dəfə xilas etmək cəhdindən əvvəl baş verə biləcək zorakı ölümdən qorxur. Adam irəlilədiyi yolda artıq çox şeyini atıb. Sonra qızıl ilə doldurulmuş ağır çantanın yarısını boşaldır. Zaman-zaman huşunu itirməyə başlayır. İçindəki həyat eşqi onu hərəkətə gətirir. O düşünür: “Həyat fani və beşgünlükdür. Yalnız həyat əzab çəkməyə məcbur edir. Ölmək ağrılı deyil. Ölmək – yatmaqdır. Ölüm son, istirahət deməkdir. O halda, o, niyə ölmək istəmir?” Ancaq çox fikirləşmir, vaxta fikir vermədən, gecə-gündüz hərəkət edir, yıxıldığı yerdə dincəlir, sönən həyatı yenidən alovlananda isə irəliləyir. Artıq o, adi insanlar kimi mübarizə etmir. Lakin ondakı həyatın özü məhv olmaq istəmir və onu irəliyə getməyə məcbur edir. O, daha əzab çəkmir. Əsəbləri, sanki donaraq kütləşmiş, beynində qəribə xəyallar dolaşır, ümidverici yuxular görür. Ətrafda həyat var. Ancaq bu həyat aşıbdaşan və sağlam bir həyatdır. O dayanmadan parlaq dənizdəki gəmiyə tərəf irəliləyir…

Həyatda rast gəlinən ən amansız bir mübarizənin sonu. Son qüvvəsi ilə sürünən xəstə insan və axsaya-axsaya onun ardınca düşən xəstə canavar. Hər ikisi ölümcül haldadır. Boz və soyuq səhrada sürünərək bir-birini gözdən qoymaq istəmirlər. O, artıq hər şeyə biganədir, nəyisə hiss etmək və ya həyəcanlanmaq hisslərini itirib. Artıq o, ağrını da hiss etmir. Mədəsi və əsəbləri, sanki yuxuya gedib. Ancaq onda hələ sönməyən həyat eşqi var və onu irəliyə getməyə məcbur edir. Canavar isə addım-addım onu izləyir. Bir insanın xəstə canavarla mübarizə etməsi qəhrəmana təhqiramiz görünür, amma bilir ki, hətta bu rəqabət də onun üçün məqbuldur. Bütün olub keçənlərdən sonra ölmək axmaqlıq olardı onun üçün. O, ölümün astanasında olsa da, ölümə təslim olmur. Bəlkə də, bu, ağılsızlıq idi. Ancaq o, ölümün pəncəsində olanda belə, ölümə meydan oxuyur, onunla mübarizə aparır. Yaxınlaşan təhlükə hissi adamı qərar qəbul etməyə məcbur edir. Bütün iradi gücünü, şüurunu qorumağa çalışaraq yuxuda ölməyə can atır, səbirlə canavarın ona yaxınlaşmasını gözləyir. Nəhayət, iki varlıq arasında ölümcül bir mübarizə başlayır və sonda adam qalib gəlir. Uzaqdan bir gəmi ölü canavar və huşsuz adamı görür. Dəhşətli əzabların sonudur artıq. Yaşamaq istəyi qalib gəlir. Hər şey, bu mübarizə sonda qazanılan çətin və şirin Qələbə üçün idi…

O, bir qəhrəmandır. Ölümün gözünə dik baxan, həyatın çətin və dözülməz imtahanı qarşısında sonadək savaşan və qazanan qəhrəman. Bu yolda dostunu itirir, həyatında dadmadığı qorxu hissini yaşayır, ancaq bütün bunları onun qarşısına çıxaran, onu sınağa çəkən həyatla sonuna qədər mübarizə aparır. Hekayənin əsas qəhrəmanının adı verilmir. Yazıçı, bəlkə də, bununla oxucunu həmin qəhrəmanın yerində görmək istəyir. Bu qəhrəman mən də ola bilərəm, sən də, bir başqası da. Əsas odur ki, hər bir oxucu həyatla çətin mübarizədə qalib gəlməyi bacarsın…

“Həyat eşqi” 1905-ci ildə yazılıb, ancaq qaldırılan problemlər indi də aktualdır. Bu hekayə göstərir ki, həyat sevgisi ən inanılmaz dərəcədə çətin vəziyyətdə yaşamağa kömək edir. Həyat sevgisi cəsarət və dözümlülük, sonuna qədər döyüşməyinizi öyrədir. Nə olursa-olsun, hədəfə getməyi, yaşadığımız həyatı fəth etməyi öyrədir. Dostlara heç vaxt xəyanət etməməyi, ən yaxşısına inanmağı öyrədir. Əsər bu mühüm ideya-bədii məziyyətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”na salınıb.

Hekayədə sağ qalmaq uğrunda mübarizə o qədər mükəmməl təsvir edilib ki, həyatın necə dəyərli olduğunu göstərir. Cek London bu hekayə ilə nəyin bahasına olursa-olsun, yaşamağa səsləyir, insana həyat sevinci bəxş edir. İnsan üçün onun həyatından daha dəyərli heç nə yoxdur və həyat nə qədər dəhşətli olsa da, yenə də gözəldir. Bütün çətinliklərə baxmayaraq, həmişə ümidinizin və həyat eşqinizin sizi tərk etməməsi diləyi ilə.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

### İtmişdir

Babək rayon Xal-xal kəndində Abdullayeva Gülnarə Sahib qızının adına olan torpaq sahəsinin MH-0047889 nömrəli daşınmaz əmlakın dövlət reysterindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 3-cü küçə 6/1-də yaşayan Səfərova Şəfəq Baxşəli qızının adına olan A-009059 nömrəli torpaq sahəsinin planı və ölçüsü 14.08.2018-ci il tarixli MH-0060432 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 734